# Yazıçı Əli Eyvazovla görüş

Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində Azərbaycan Yazıçılar Birliyinin üzvü, hüquq elmləri namizədi, fəlsəfə doktoru Əli Eyvazovla görüş keçirilmişdir.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işi sektorunun müdiri Lətifə Məmmədova, Qəbələ Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivi, fəal oxucular iştirak edirdilər.

Tədbirdə Əli Eyvazovun «Bir batalyonun tarixi» adlı kitabının təqdimat mərasimi keçirilmişdir. Təqdimat mərasimini kitabxananın direktoru Ramiz Mirzəyev açaraq torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizəyə həsr olunmuş bu kitabda qəhrəmanlıqları bəhs olunan Azərbaycan oğullarından danışdı. Sonra sözü «Bir batalyonun tarixi» kitabının müəllifi Əli Eyvazova verdi.

Əli Eyvazov öz çıxışında qeyd etdi ki, qələmə aldığım «Bir batalyonun tarixi» sənədli povestində müharibə dövrünün hadisələrindən, insanlar və onların talelərindən, real faktlardan bəhs olunur. Əslində bu kitab Azərbaycanın tarixinin bir səhifəsidir. Kitab Qarabağ münaqişəsini özündə geniş əks etdirən sənədli bir povestdir. Hər birimiz bir vətənpərvər Azərbaycan vətəndaşı olaraq tariximiz haqqında geniş informasiya yiyələnməliyik.

Daha sonra Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işi sektorunun müdiri Lətifə Məmmədova, MKS-nin metodist şöbəsinin müdiri Maarif Həsənov, fəal oxuculardan Cəmilə Səftərli, MKS-nin baş kitabxanaçısı İlhamə Nəbiyeva, gənc oxucu Rəqsanə Abduləzizova, Qəbələ şəhər 2 saylı tam orta məktəbin şagirdi İradə Hümbətli kitabın bədii dəyəri haqqında fikirlərini söylədilər.

Sonda müəllif kitaba yazılmış ön sözdə Esmira Şükürovaya, kitabın ərsəyə gəlməsində böyük əməyi olan Lətifə Məmmədovaya və digərlərinə öz minnətdarlığını bildirdi.

MKS-nin direktoru Ramiz Mirzəyev tədbirdə iştirak edən qonaqlara və fəal oxuculara dəyərli vaxtlarını ayırdıqları və bu mövzuya diqqətlə yanaşdıqları üçün təşəkkür edərək tədbiri bağlı elan etdi.

**Xalidə MƏMMƏDOVA,**
**Qəbələ rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin informasiya-resurs şöbəsinin müdiri.**

## V Beynəlxalq Musiqi Festivalına

*Uzaq ölkələrdən,*
*Uzaq ellərdən,*
*Məşhur sənətkarlar*
*Təşrif gətirdilər*
*Musiqi festivalına.*
*Ay da şəfəq saldı*
*Dağların camalına.*
*Küçələri gəzdilər*
*İnsanları sevdilər.*
*Baxıb Qəbələnin*
*təbiətinə*
*Heyran oldular.*
*Tarixə yazıldı*
*Bizim Qəbələ,*
*Ugurları öndədir hələ.*
*Belə bir məclisi*
*qurub-yaradan*
*Həcər hünərli, Sara*
*Xatun şücaətli*
*Xoş məramlı səfir*
*Mehriban xanım,*
*Sənə arxa olsun*
*ulu yaradan!*
*Xeyirxah əməllərin*
*dünyaya səs salar.*
*Qəbələdən sizə*
*təşəkkürlər var.*

**Rəciyyə MEYFULLAQIZI,**
**Qəbələ şəhəri.**

# Təbrik edirik

***Dövlət İdarələri və İctimai Xidmət işçilə!ri! Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsi sizi müqəddəs***

## *Ramazan bayramı*

***münasibətilə təbrik edir, hər birinizə sevinc dolu günlər arzulayır.***

**DİİXİHİ Qəbələ Rayon Komitəsinin sədri**
**Fərman HACIYEV.**

### Elan

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən Qəbələ şəhər sakini Sərvanuş Fərari Yarəmməd oğlu və ailə üzvlərinin adına 26 fevral 2001-ci il tarixli 3 saylı qərarla verilmiş JN 2524 F saylı, kodu 40601004 **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

### Elanlar

Dövlət Əmlakının hüquqi və fiziki şəxslərə satılması haqqında Əsədov Mübariz Varis oğlunun və digərlərinin adına Qəbələ rayonu Ləki Neftbazası 17 saylı Yanacaqdoldurma məntəqəsi üçün 7 aprel 1997-ci il tarixdə verilmiş 003434 №-li mülkiyyət üzərində sahiblik hüququnu təsdiqləyən **şəhadətnamə və texniki pasport itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat komissiyası tərəfindən 26 fevral 2001-ci il itarixdə 3 saylı qərarla Qəbələ şəhər sakini Xarxıyev Məmmədrəsul Qazəmməd oğlunun və ailə üzvlərinin adına verilmiş JN-1210F saylı (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsfız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən Zarağan kənd sakini Osmanov Əjdər Abbas oğlunun və ailə üzvlərinin adına 29 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla verilmiş JN 424 F saylı, kodu 40608018 (qeydiyyat № 7168) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 25 fevral1999-cu il tarixli 04 nömrəli qərarla Qəbələ rayonunun Nic qəsəbə sakini Əliyev Nazim Mədət oğlunun və ailə üzvlərinin adına verilmiş JN-137 F saylı (kod 40600068)**Torpağın mülkiyyətə verilməsinə dair şəhadtnamə itdiyi üçün** etibarsız sayılır.

### Futbol

# İlk oyunda ilk qələbə

Topaz Premyer Liqasında növbəti ölkə çepmpionatına start verilmişdir. Çempionatın ilk oyunu avqustun 2-də paytaxtda «Bakı» komandası ilə «Qəbələ» arasında keçirilmişdir. Oyunda ilk hesabı bakılılır açsa da, sonradan meydançaya çıxan Qəbələ hücumçusu Viktor Mendi dəqiq baş zərbəsi ilə vurduğu 2 topla komandasına uğur gətirmişdir.

Turun digər oyunları isə belə nəticələnmişdir: «İnter»—«Qarabağ»—1:2, «Sumqayıt»—Xəzər Lənkəran»—1:1, «Simurq»—«Rəvan»—2:0.

Çempionatın ilk turunda ən böyük hesab paytaxtda qeydə alınmışdır. Ölkə çempionu «Neftçi» AZAL üzərində 4:1 hesablı qələbəyə imza atmışdır.

**Miri RƏHİMOV.**

## Topaz Premyer Liqasının təqvimi

**III tur**

**17 avqust (şənbə)**

11. "Neftçi" (Bakı)—"Simurq" (Zaqatala)

**18 avqust (bazar)**

12. "Qarabağ" (Ağdam)— "Xəzər Lənkəran" (Lənkəran)
13. "İnter" (Bakı)—AZAL (Bakı)

**19 avqust (bazar ertəsi)**

14. "Sumqayıt" (Sumqayıt) – "Qəbələ" (Qəbələ)
15. "Bakı" (Bakı)—"Rəvan" (Bakı)

**IV tur**

**23 avqust (cümə)**

16. AZAL (Bakı)—"Sumqayıt" (Sumqayıt)

**24 avqust (şənbə)**

17. "Simurq" (Zaqatala)—"Bakı" (Bakı)

**25 avqust (bazar)**

18. "Xəzər Lənkəran" (Lənkəran)—"Neftçi" (Bakı)
19. "Rəvan" (Bakı)—"İnter" (Bakı)
20. "Qəbələ" (Qəbələ)—"Qarabağ" (Ağdam)

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 29 noyabr 1997-ci il tarixli 26 saylı qərarla Zarağan kənd sakini Osmanov Əjdər Abbas oğlunun və ailə üzvlərinin adına verilmiş JN 424 F №-li (kodu 40608018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən 7 noyabr 1997-ci il tarixli qərarla Böyük Əmili kənd sakini Cabbarov Yolçu Şərif oğlunun və ailə üzvlərinin adına verilmiş JN 320 №-li (kodu 40604028, dövlət qeydiyyatı nömrəsi 514) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibrsız sayılır.

---

Qəbələ rayon aqrar islahat komissiyası tərəfindən Böyük Əmili kənd sakini Nağıyev Namizəd Şərif oğlu və ailə üzvlərinin adına verilmiş JN 319 (kodu 40604028, dövlət qeydiyyatı nömrəsi 513) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ şəhər sakini Kərimova İradə İbrahim qızına Üzeyir Hacıbəyov adına Ağdam orta ixtisas musiqi məktəbi tərəfindən 28 iyun 1989-cu il tarixdə verilmiş MT-1 № 295888 nömrəli **diplomu itdiyi üçün** etibarsız sayılır.

### ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ şəhər İnzibati Ərazi Nümayəndəliyinin kollektivi sabiq iş yoldaşları

**ƏLİŞ AĞAYEVİN**

qəflətən vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

Qəbələ Mərkəzi Xəstəxanasının baş həkimi Sabir Bayramov və kollektivi **Məmmədovlar ailsinə** əzizləri, rayon ağsaqqalı

**YAVƏR MƏMMƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiklərini bildirirlər.

---

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələri Veteranları Qəbələ Rayon Şurasının sədri İ. Mustafayev və şura üzvləri Böyük Vətən Müharibəsinin iştirakçısı

**XANCANOV ABDULHƏLİM İSMAYIL OĞLUNUN**

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Məsul katib
N. R. Atakişiyev.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2142.